UNUTMA!

Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

Sıra	Rayonların adı	Sahəsi	Kənd və digər yaşayış məntəqələrinin sayı	İşğal zamanı əhalinin sayı	İşğal olunduğu tarix	Şəhidlərin sayı	Milli Qəhrəmanların sayı
1	Xankəndi	302 kv.km	25 (25)	18 min nəfər	1991	102 nəfər	___
2	Xocavənd	1458 kv.km	78 (78)	10 min nəfər	18.02.1992	145 nəfər	___
3	Xocalı	926 kv.km	65 (65)	12 min nəfər	26.02.1992	3200 (613)	10 nəfər
4	Şuşa	289 kv.km	30 (30)	25 min nəfər	08.05.1992	250 nəfər	3 nəfər
5	Laçın	1835 kv.km	126 (126)	60 min nəfər	18.05.1992	262 nəfər	5 nəfər
6	Kəlbəcər	1936 kv.km	124 (124)	68 min nəfər	02.04.1993	200 nəfər	2 nəfər
7	Ağdərə	1705 kv.km	58 (58)	49 min nəfər	17.06.1993	145 nəfər	___
8	Ağdam	1094 kv.km	121 (80)	150 min nəfər	23.07.1993	5000 nəfər	15 nəfər
9	Cəbrayıl	1050 kv.km	90 (89)	59 min nəfər	23.08.1993	381 nəfər	6 nəfər
10	Füzuli	1392 kv.km	75 (51)	100 min nəfər	23.08.1993	1000 nəfər	8 nəfər
11	Qubadlı	802 kv.km	95 (95)	30 min nəfər	31.08.1993	200 nəfər	10 nəfər
12	Zəngilan	707 kv.km	83 (83)	35 min nəfər	30.10.1993	200 nəfər	3 nəfər
	Cəmi:	13490 kv.km	970	616 min nəfər	___	10085 nəfər	62 nəfər

Qeyd: *Mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

ŞƏXSİ HEYƏT VƏTƏNƏ SEVGİ, XALQA MƏHƏBBƏT, DÖVLƏTƏ SƏDAQƏT RUHUNDA TƏRBİYƏ OLUNUR

12318 saylı hərbi hissənin komendant bölüyü döyüş bayrağının, hərbi hissənin etibarlı mühafizə və müdafiəsini təşkil edir. Həmin vəzifələrin, eləcə də qəflətən qarşıya çıxan tapşırıqların peşəkarlıqla yerinə yetirilməsi üçün şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanılması əsas şərtlərdən biridir. Bu işdə bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Ramil Əsgərov əlindən gələni əsirgəmir.

Leytenant R.Əsgərov 1990-cı il avqustun 3-də Bərdə rayonunun Qəhrəmanlı kəndində anadan olub. 1997-2008-ci illərdə Saatlı rayonunda Rafiq Orucov adına tam orta məktəbdə təhsil alıb. Müddətli həqiqi hərbi xidmətə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində başlayan Ramil 2010-cu ilin aprel ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 16077 saylı hərbi hissədə xidmətini davam etdirdi. 2012-2014-cü illərdə isə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil alıb.

Hazırda o, 12318 saylı hərbi hissənin demək olar ki, ən qabaqcıl bölüklərindən sayılan komendant bölüyünün tərbiyə işləri üzrə müavini vəzifəsində xidmət edir. Gənc olmasına baxmayaraq olduqca bacarıqlı, nizam-intizamlı və vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçumuz hissə komandanlığı tərəfindən də müsbət xarakterizə olunur.

Leytenant R.Əsgərov bildirir ki, komendant taqımının xidməti-döyüş fəaliyyətinin əsas istiqamətlərindən biri olan qarovul xidmətinə cəlb edilən şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsi, ayıq-sayıqlığın qorunub saxlanılması, təhlükəsizlik qaydalarına ciddi əməl olunması üçün planlı şəkildə müvafiq tədbirlər həyata keçirilir. Dediyinə görə, bunun üçün ilk növbədə verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşmaq vacibdir. Ona görə də hərbi qulluqçuların vəziyyəti ilə şəxsən maraqlanır, fərdi söhbətlər aparır, xidmətin müvafiq əmrlərin tələblərinə uyğun təşkil olunmasına nəzarət edir.

Xidmətə cəlb olunan qarovul nəfərləri əvvəlcə təlimatlandırılır, saatdan üzərinə düşən vəzifələr izah olunur, postda olarkən son dərəcə ayıq-sayıq, diqqətin yayındırılmaması nəzərə çatdırılır.

Şəxsi heyətin asudə vaxtının səmərəli təşkil olunması da diqqət mərkəzində saxlanılır. Belə ki, hər həftə taqımların şəxsi heyəti ilə mədəni gəzintilər təşkil olunur. Heydər Əliyevin həyat və yaradıcılığını əks etdirən muzey, Hacıqabul rayon Tarix və Diyarşünaslıq muzeyi ilə tanışlığı əsgərlərdə xoş təəssüratlar yaradır. Eyni zamanda, şəxsi heyət Şəhidlər Xiyabanını ziyarət edir və digər qədim tarixi-mədəni abidələrlə tanış olurlar.

Leytenant R.Əsgərov qeyd etdi ki, şəxsi heyətlə mütəmadi olaraq vətənpərvərlik mövzusunda söhbətlər aparılır, onlara tariximiz, mədəniyyətimiz, Daxili Qoşunların çətin və şərəfli döyüş yolu, şəhid hərbi qulluqçularımızın qəhrəmanlıq nümunələri haqqında geniş məlumatlar verilir. Bundan əlavə, komendant bölüyünün istedadlı hərbi qulluqçuları divar qəzetinin hazırlanmasında da fəal iştirak edirlər. Hərbi kollektivlərin möhkəmləndirilməsində, şəxsi heyətin təlim və tərbiyəsində xüsusi rolu olan qəzetdə bölüyün həyatı, fəalları, əlamətdar günlər barədə maraqlı yazılar yer alır. Bütün bunlar hərbi qulluqçularda Vətənə sevgi, xalqa məhəbbət, dövlətə sədaqət hisslərini, eyni zamanda möhkəm hərbi nizam-intizam formalaşdırır.

leytenant X.Tağıyeva

(əvvəli ötən saylarımızda)

İNSAN HÜQUQLARI VƏ ƏSAS AZADLIQLARI HAQQINDA AVROPA KONVENSİYASI

III BÖLMƏ

ÜMUMİ MÜDDƏALAR

Maddə 52. Baş Katibin sorğuları

Avropa Şurası Baş Katibinin müraciəti əsasında hər bir Razılığa gələn Yüksək Tərəf öz daxili hüququnun, bu Konvensiyanın hər hansı müddəasının səmərəli tətbiqini necə təmin edəcəyi ilə bağlı izahat təqdim edir.

Maddə 53. Bu insan hüquqları ilə bağlı təminatlar

Bu Konvensiyada heç nə hər hansı Razılığa gələn Yüksək Tərəfin qanunvericiliyi və ya onun Tərəf olduğu hər hansı digər sazişlə təmin edilə bilən insan hüquqları və əsas azadlıqlarından hər hansını məhdudlaşdırmaq və ya onlardan geri çəkilmə kimi şərh oluna bilməz.

Maddə 54. Nazirlər Komitəsinin səlahiyyətləri

Bu Konvensiyada heç nə Avropa Şurası Nizamnaməsinin Nazirlər Komitəsinə verdiyi səlahiyyətlərə xələl gətirmir.

Maddə 55. Mübahisələrin digər vasitələrlə tənzimlənməsindən imtina

Razılığa gələn Yüksək Tərəflər, xüsusi saziş istisna olmaqla, bu Konvensiyanın müddəalarının şərhi və tətbiqi ilə bağlı mübahisələri petisiya yolu ilə baxışa verərkən, onlar arasında qüvvədə olan müqavilələrə və ya bəyannamələrə müraciət etməyəcəklərinə və bu Konvensiyada nəzərdə tutulanlardan başqa mübahisələrin tənzimlənməsi vasitələrindən istifadə etməməyə razılıq verirlər.

Maddə 56. Ərazi tətbiqi

1. Hər hansı Dövlət imzalanma, yaxud ratifikasiya zamanı və ya sonradan istənilən vaxt Avropa Şurasının Baş Katibinə ünvanlanmış bildiriş vasitəsilə Konvensiyanın, bu maddənin 4-cü bəndi nəzərə alınmaqla, beynəlxalq əlaqələrinə görə onun cavabdehlik daşıdığı bütün ərazilərə, yaxud onlardan hər hansı birinə şamil ediləcəyini bəyan edə bilər.

2. Konvensiya bildirişdə adı çəkilən əraziyə və ya ərazilərə Avropa Şurasının Baş Katibi bildirişi aldıqdan 30 gün sonra şamil edilir.

3. Bu Konvensiyanın müddəaları belə ərazilərdə yerli şəraitin lazımi qaydada nəzərə alınması ilə tətbiq edilir.

4. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatda göstərilmiş bir və ya bir neçə ərazinin adından Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq, Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

Maddə 57. Qeyd-şərtlər

1. İstənilən dövlət bu Konvensiyanı imzalayarkən və ya onun ratifikasiya sənədini depozitə verərkən Konvensiyanın hər hansı konkret müddəası ilə bağlı, o dövrdə, onun ərazisində qüvvədə olan bu və ya digər qanunun həmin müddəaya uyğun olmaması ilə əlaqədar qeyd-şərt verə bilər. Bu maddəyə müvafiq olaraq, ümumi xarakterli qeyd-şərtlərə yol verilmir.

2. Bu maddəyə uyğun olaraq edilmiş istənilən qeyd-şərt müvafiq qanunun qısa məzmununu əks etdirməlidir.

Maddə 58. Denonsasiya

1. Razılığa gələn Yüksək Tərəf, yalnız bu Konvensiyanın tərəfi olduğu tarixdən 5 il keçdikdən sonra və bu barədə digər Razılığa gələn Yüksək Tərəfləri məlumatlandıracaq Avropa Şurasının Baş Katibinə ünvanlanmış, xəbərdarlığın əks olunduğu, bildirişi göndərdikdən 6 ay sonra bu Konvensiyanı denonsasiya edə bilər.

2. Denonsasiya müvafiq Razılığa gələn Yüksək Tərəfi denonsasiyanın qüvvəyə minəcəyi tarixədək törədə biləcəyi və bu Konvensiya üzrə öhdəliklərini poza biləcək hər hansı əməlinə münasibətdə belə öhdəliklərindən azad etmir.

3. Avropa Şurasının üzvlüyündən çıxan hər hansı Razılığa gələn Yüksək Tərəf eyni şərtlərlə bu Konvensiyanın da Tərəfi olmur.

4. Konvensiya 56-cı maddəyə əsasən, onun şamil olunmasının bəyan edildiyi istənilən əraziyə münasibətdə əvvəlki bəndlərin müddəalarına müvafiq olaraq denonsasiya edilə bilər.

Maddə 59. İmzalama və ratifikasiya

1. Bu Konvensiya Avropa Şurası üzvləri tərəfindən imzalanmaq üçün açıqdır. O, ratifikasiya olunmalıdır. Ratifikasiya sənədi Avropa Şurasının Baş Katibinə saxlanmaya verilir.

2. Bu Konvensiya on ratifikasiya sənədi saxlanmaya verildikdən sonra qüvvəyə minir.

3. Sonradan ratifikasiya edən dövlətlər üçün Konvensiya onların ratifikasiya sənədlərini saxlanmaya verdikləri tarixdən qüvvəyə minir.

4. Avropa Şurasının Baş Katibi Konvensiyanın qüvvəyə minməsi, onu ratifikasiya etmiş Razılığa gələn Yüksək Tərəflərin adları və sonradan qüvvəyə minmiş bütün ratifikasiya sənədlərinin saxlanmaya verilməsi haqqında Avropa Şurasının bütün üzv dövlətlərini xəbərdar edir.

4 noyabr 1950-ci ildə Roma şəhərində, hər iki mətni bərabər autentik olmaqla, ingilis və fransız dillərində, Avropa Şurasının arxivində saxlanacaq bir nüsxədə icra olunmuşdur. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş nüsxələri hər bir imzalayan dövlətə göndərəcəkdir.

3 sentyabr 1953-cü ildə qüvvəyə minmişdir.

Roma, 4.XI.1950

21 sentyabr 1970-ci ildə qüvvəyə minmiş 3 saylı Protokolla,

20 dekabr 1971-ci ildə qüvvəyə minmiş 5 saylı Protokolla,

1 yanvar 1990-cı ildə qüvvəyə minmiş 8 saylı Protokolla,

1 noyabr 1998-ci ildə qüvvəyə minmiş 11 saylı Protokolla dəyişikliklər və əlavələr edilmişdir.

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASI KOMİTƏSİ ERMƏNİSTANDAN SİLAHLI QÜVVƏLƏRİNİ SƏRSƏNG SU ANBARI HÖVZƏSİNDƏN DƏRHAL ÇIXARMAĞI TƏLƏB EDİB

Noyabrın 26-da Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sosial məsələlər, səhiyyə və davamlı inkişaf komitəsinin iclasında Bosniya–Herseqovinadan olan məruzəçi Miliça Markoviçin Sərsəng su anbarı ilə bağlı hazırladığı qətnamə dinlənilib. Deputatlar Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisində yerləşən və 20 ildən artıq bir müddətdə heç bir təmir görməyən su anbarının ölkəmizin cəbhəyani rayonları üçün təhlükə yaratdığını bildiriblər.

Qeyd edilib ki, bərbad vəziyyətdə olan Sərsəng su anbarı böyük fəlakətə, çoxlu sayda insan itkisinə və humanitar böhrana səbəb ola bilər.

Bu vəziyyəti nəzərə alaraq komitə üzvləri mühendislərin və hidroloqların sərbəst surətdə bu zonaya gedib vəziyyəti öyrənmələrinə imkan yaratmaq üçün Ermənistandan öz silahlı qüvvələrini bu rayondan dərhal çıxarmağı və su ehtiyatından siyasi təsir və təzyiq aləti kimi istifadə etməməyi tələb ediblər.

AZƏRTAC

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 23 (465)
11 dekabr 2015-ci il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV - AZƏRBAYCAN DÖVLƏTİNİN XİLASKARI, MEMARI VƏ QURUCUSU

HƏR ZAMAN İFTİXAR HİSSİ İLƏ XATIRLAYACAĞIMIZ ULU ÖNDƏRİN VƏFATINDAN 12 İL ÖTÜR

Ötən bu illər ərzində zaman Heydər Əliyev şəxsiyyətinin, dünyavi baxışlarının, siyasi iradəsinin nə qədər əzəmətli, nə qədər zəngin və dəyərli olduğunu bir daha təsdiq etmişdir.

Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran, cəmiyyətdə qanunçuluğu, hüquq qaydalarını təmin edən bir rəhbər idi. Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının reallaşmasına çalışan Dahi Rəhbərimiz Azərbaycanı ən inkişaf etmiş dövlətlər səviyyəsinə çıxarmaq, mədəniyyətimizin zənginliyini dünyaya nümayiş etdirmək üçün əlindən gələni əsirgəməmişdir.

Hələ 1969-cu ildə Heydər Əliyevin respublikamızda rəhbərliyə gəlişi ilə sovet rejiminin sərt qadağalarına baxmayaraq Azərbaycanda böyük iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açıldı. Həmin illərdə başlanan genişmiqyaslı işlər nəticəsində Azərbaycan ittifaq respublikaları arasında öz layiqli yerini tutdu. Müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi məhz Heydər Əliyevin sayəsində ötən əsrin 70-80-ci illərində qoyuldu və ölkəmizin gələcəyi üçün möhkəm təməl yaradıldı.

Sovet ideologiyasının hakim kəsildiyi bir zamanda Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin eriyib itməməsi üçün nə lazım idisə, onu edirdi. Ümummilli Lider respublikaya birinci rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa nail oldu, dövr baxımından sözün əsl mənasında qəhrəmanlığa bərabər addım atılaraq 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit edildi. Azərbaycanlı gənclərin keçmiş sovetlər ittifaqının nüfuzlu ali məktəblərində təhsillərini davam etdirməsi, elmi və kadr potensialının yüksəldilməsi, güclü zabit korpusunun yaradılması üçün Çəmşid Naxçıvanski adına Hərbi məktəbin fəaliyyətə başlaması da məhz Ulu Öndərin adı ilə bağlıdır.

Bu mənada Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi həmin dövrü Azərbaycanın milli intibah dövrü kimi də səciyyələndirmək olar.

İllər ötdü, sovetlər dönəmi süquta uğradı və ittifaq ölkələri kimi Azərbaycan da müstəqillik əldə etdi...

Müstəqilliyin ilk illərində ölkədə ağır sosial-iqtisadi çətinliklər vəziyyəti daha da çətinləşdirmişdi. Siyasi hakimiyyət dövlətin idarə olunmasında acizlik nümayiş etdirdi, hətta ölkəmiz vətəndaş müharibəsi astanasında idi. Lakin Azərbaycanın düçar olduğu bu ağır vəziyyət dahi şəxsiyyət Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra müsbət həlline tapdı.

Təbii ki, o zaman - 1993-cü ilin ortalarında Azərbaycan bir dövlət kimi məhvolma təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqın təkidli xahiş və tələblərinə cavab olaraq yenidən hakimiyyətə qayıdan müdrik rəhbərimiz Heydər Əliyev dahi uzaggörənliyi ilə çox ciddi ictimai-siyasi problemlərə, iqtisadi çətinliklərə, düşmən təcavüzü, hərbi qarşıdurma ilə üzləşmış Azərbaycanın parçalanmasının, müstəqilliyinin itirilməsinin qarşısını aldı, ictimai-siyasi sabitliyi təmin etdi. Xarici ölkələrlə pozulmuş münasibətlər qaydaya salındı.

Ən əsası isə Azərbaycanın dövlət müstəqilliyinin daimiliyini, əbədiliyini, dönməzliyini təmin edən mükəmməl bir dövlətçilik ideologiyası formalaşdırdı.

Demokratik inkişaf yolunu seçmiş bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri - xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçildi.

Müdrik, qətiyyətli dövlət başçısı kimi Heydər Əliyevə olan inamın nəticəsi idi ki, 1994-cü ildə dünyanın ən böyük və nüfuzlu neft şirkətləri ilə Azərbaycan Respublikası arasında Xəzərin karbohidrogen ehtiyatlarının hasilatına və nəqlinə dair bu gün görülən işlərin əsası kimi "Əsrin müqaviləsi" imzalandı.

Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 10 il Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş dövrü kimi yazıldı. Bu dövr ərzində Heydər Əliyev ölkəmizi təhlükə və çətinliklərdən qurtararaq sabit inkişaf yoluna çıxardı. Bu illər ərzində ictimai-siyasi sabitlik təmin olundu, iqtisadi inkişafa geniş meydan açıldı, ölkəyə xarici sərmayələr cəlb edildi, dövlət idarəçiliyi mexanizmi yenidən yaradıldı, nizami ordu quruldu, genişmiqyaslı siyasi, hüquqi, iqtisadi, sosial və mədəni islahatlar həyata keçirildi, ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edildi. Həmçinin dövlətimiz dünya birliyində layiqli yerini tutdu, bölgədə geosiyasi mövqelərini möhkəmləndirərək böyük beynəlxalq nüfuz qazandı. Nəticə etibarilə, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, azad vətəndaş cəmiyyəti bərqərar edildi. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə azərbaycançılıq ideyası şüurlara hakim kəsildi, milli birlik və həmrəylik təmin edildi. Bütün bu işlərin həyata keçirilməsində Heydər Əliyev həmişə xalqa arxalanmış və onun tam dəstəyini hiss etmişdir.

Bir sözlə, Heydər Əliyev zəngin siyasi fəaliyyəti ilə Azərbaycan dövlətinin tarixində müstəsna rol oynamışdır. Məhz buna görə xalqımız Ulu Öndərin adını tarixə dövlətimizin xilaskarı, memarı və qurucusu kimi hakk etmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət quruculuğu prosesinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək əzmkarlıqla davam etdirilməsi xalqımızın sabaha inamının nümunəsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi strateji inkişaf kursunun uğurları sayəsində müstəqil dövlətimiz iqtisadi inkişaf potensialına görə bütün dünyada lidersə çevrilmiş, beynəlxalq münasibətlər sistemində ölkəmizin mövqeyi möhkəmlənmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün ölkə rəhbərinin tutduğu mövqe, yürütdüyü siyasət xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bütün bunlar Ulu Öndərimizin mənəvi irsinin layiqincə davam etdirildiyini, Azərbaycan xalqının öz seçimində yanılmadığını, müstəqil dövlətimizin taleyinin etibarlı əllərdə olduğunu təsdiqləyir.

Ulu Öndər Heydər Əliyevi yad edərkən, xatirəsini anarkən onun xalqımıza ərməğan etdiyi müstəqil Azərbaycanı qorumağı, onun əlməz ideyalarını yaşatmağı qarşımızda bir vəzifə olaraq görürük. Heydər Əliyev yolu ilə, Heydər Əliyev ideyaları ilə Azərbaycan daim böyük uğurlar qazanacaq və daha möhtəşəm qələbələr qazandıracaqdır.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ GENERAL-POLKOVNİK RAMİL USUBOV: "VƏTƏNDAŞLARDAN, XÜSUSƏN DƏ NARDARANDA YAŞAYANLARDAN BİR DAHA TƏLƏB VƏ XAHİŞ EDİRƏM Kİ, ƏLLƏRDƏ OLAN SİLAHI TƏCİLİ ƏRAZİDƏKİ POLİS POSTLARINA TƏHVİL VERSİNLƏR"



Azərbaycanın dövlət və konstitusiyon quruluşunu dəyişməyə yönələn bu cür cinayətkarlıq əməllərinin qarşısının qətiyyətlə alınacağını deyən R.Usubov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bununla bağlı hüquq mühafizə orqanlarına ciddi tədbirlər görməyi tapşırdığını bildirib. İlk əməliyyat zamanı Nardaran qəsəbəsində silahlı müqavimət göstərildi. Daxili işlər orqanlarının əməkdaşlarına avtomatlardan atəş açıldı, qumbaralar atıldı. Həmin silahlı dəstənin zərərsizləşdirilməsi zamanı iki polis əməkdaşı şəhid oldu.

Nardaranda dövlət qurumları ilə qarşıdurmaların əvvəlki illərdə də olduğunu xatırladan nazir bildirib ki, 2005-ci ildə də iki polis əməkdaşı bu qəsəbədə qətlə yetirildi. Bugünədək artıq 23-cü dəfədir ki, Nardaranda polislə qarşıdurma olur. Bu hərəkətlərlə bərabər, orada kriminogen durum gərginləşir, kriminal hadisələr getdikcə artır. Orada bir neçə dəfə insan ölümü, narkotik maddələrin qanunsuz dövriyyəsinin artması, gənclərin bu bəlaya tutulması ilə bağlı çoxlu faktlar olub. Hatta orada torpaq sahəsi alan, ev tikan insanlara müxtəlif ultimatumlar verilirdi.

Nazir deyib ki, bütün bu hallardan qarşısını almaq üçün noyabrın 26-da Baş Prokurorluğun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin əməkdaşlarının birgə iştirakı ilə xüsusi əməliyyat planı işlənib hazırlanıb və tədbirlər görülməyə başlanıb. Bu gün artıq 32 nəfər barəsində həbs qətimkan tədbiri seçilib. Həmin hadisədə polisə və hüquq mühafizə orqanlarının işçilərinə silah tətbiq edən cinayətkarlardan beşi məhv edilib.

Baş Prokurorluq tərəfindən intensiv istintaq işlərinin aparıldığını qeyd edən nazir bildirib ki, Nardaranda Daxili İşlər Nazirliyinin həm polis, həm də Daxili Qoşun qüvvələri vəziyyəti tamamilə nəzarət altına alıb. Dekabrın 1-də və 2-də heç bir insident baş verməyib. Biz orada yaşayan vətəndaşlardan silahı yerə qoymağı, əllərdə olan avtomat, tapança, qumbaraları könüllü olaraq təhvil verməyi tələb edirik. Təəssüflər olsun ki, bugünədək bir ədəd də silah könüllü surətdə təhvil verilməyib. Vətəndaşlardan, xüsusən də Nardaranda yaşayanlardan bir daha tələb və xahiş ediram ki, əllərdə olan silahı tacili ərazidəki polis postlarına təhvil versinlər. Silahı könüllü surətdə təhvil verənlər haqqında heç bir cinayət işi başlanılmayacaq. Xüsusi əməliyyat nəticəsində artıq altı avtomat, çoxlu tapança, partlayıcı maddə və qurğular götürülüb və bu iş davam etdirilir.

Nazir sonda Azərbaycan ictimaiyyətinə və KİV-lərə Nardaranda baş veran hadisələrlə bağlı faəl münasibət bildirdiklərinə, bu insident zamanı dövlət, dövlətçilik mövqeyində durduqlarına, ictimai dəstəklərinə görə təşəkkürünü bildirib.

02.12.2015

NARDARAN QƏSƏBƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA NORMALARI BƏRPA EDİLİB

Baş Prokurorluğun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin birgə keçirdiyi xüsusi əməliyyat nəticəsində Nardaran qəsəbəsində Azərbaycan Respublikasının konstitusiya normaları bərpa edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan dövləti ekstremistlərə, müxtəlif təxribatçı

qüvvələrə, onların havadarlarına öz gücünü və qətiyyətini nümayiş etdirdi. Əməliyyatın məqsədi uzun illərdir Nardaranı orada yuva salmış radikal ekstremistlərdən təmizləmək, dövlət orqanlarının fəaliyyətini bərpa etmək, qəsəbədə mövcud olan mənfi ab-havanı aradan qaldırmaq, əmin-amanlığı və normal həyat ritmini bərpa etməkdir.

Artıq qəsəbənin küçə və meydanları ekstremist ünsürlərin qurduğu maneələrdən, qara bayraqlardan, o cümlədən Azərbaycanın müstəqilliyinə, azadlığına, demokratiyaya qarşı yönəlmiş radikal dini rəmzlərdən təmizlənib. İndi Nardaranda sivil və müasir cəmiyyət qayda-qanunlarına uyğun ab–hava bərpa edilib.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov bildirib ki, Nardaran qəsəbəsində baş vermiş məlum hadisələrlə bağlı müvafiq tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirinin əmrinə əsasən xüsusi əməliyyat nəticəsində Nardaran qəsəbəsində Azərbaycan Respublikasının konstitusiya normaları bərpa edilib.

Əməliyyat zamanı xüsusi əməliyyat tədbirlərinin keçirilməsinə başlayıb. Əməliyyat tədbirləri dekabrın 1-də bütün gün ərzində uğurla həyata keçirilib və müvafiq gösterişin icrası tam təmin olunanadək davam etdiriləcək. Nardaran qəsəbəsində asayiş və ictimai təhlükəsizlik tam təmin olunacaq.

Daxili Qoşunların Komandanı deyib ki, qəsəbənin ərazisinə giriş-çıxış, buraxılış rejiminə əməlsalar tərəfindən ciddi riayət olunur.

Cinayətkar qrupların üzvləri hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən həbs olunub. Təxribatların iştirakçısı olan digər şəxslər də aşkarlanaraq məsuliyyətə cəlb ediləcək. İnsanları itaətsizliyə və müqavimət göstərməyə çağıran ekstremist dəstənin üzvlərinin müveyyənləşdirilməsi və saxlanılması istiqamətində tədbirlər davam etdirilir. Hadisələr zamanı ictimai qaydaları pozan, polisə müqavimət və itaətsizlik göstərən şəxslər barəsində qanun çərçivəsində ölçü götürüləcək.

Hakimiyyət orqanlarının funksiyasının mənimsənilməsi, təxribatlar tördəilməsi, təhdid və təzyiq vasitəsilə insanların radikallığa və itaətsizliyə məcbur edilməsi cəhdlərinin qarşısı bundan sonra da ən sərt şəkildə alınacaq. Azərbaycan dövləti belə halların bir daha təkrarlanmaması üçün zəruri tədbirləri sonadək davam etdirməkdə tam qətiyyətlidir.

01.12.2015

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU, DAXİLİ İŞLƏR VƏ MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİKLƏRİNDƏN

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmağı, təxribatlar, kütləvi iğtişaşlar, terror aktları, bütövlükdə konstitusiya quruluşunu dəyişdirməklə şəriət qanunları ilə idarə olunan dini dövlətin yaradılmasını planlaşdıran silahlı cinayətkar dəstənin zərərsizləşdirilməsi üzrə 2015-ci il noyabrın 26-da Daxili İşlər Nazirliyi tərəfindən Bakı şəhərinin Nardaran qəsəbəsində xüsusi əməliyyat keçirilmişdir.

Əməliyyat zamanı polis əməkdaşlarına silahlı müqavimət göstərmiş cinayətkar dəstənin 4 üzvü məhv edilmiş, daha bir neçə nəfəri yaralanmışdır. Xidməti vəzifələrini sonadək mərdliklə yerinə yetirən polis serjantları Vüqar Nəsibov və İsmayıl Tağıyev qəhrəmancasına həlak olmuşlar.

Hadisə yerindən maddi sübut kimi 4 avtomat, 4 tapança, 12 qumbara, biri kənardan idarə edilən olmaqla 3 əded partlayıcı qurğu, 10 ədəd "Molotov Kokteyli", 7 ədəd bıçaq və xəncər, 3 ədəd beşbarmaq və s. götürülmüşdür. Fakt üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 120-ci, 214-cü, 220-ci, 228-ci, 233-cü, 278-ci, 279-cu, 281-ci, 283-cü, 315-ci və digər maddələri ilə cinayət işi başlanılmışdır. Cinayətkar dəstənin başçısı Taleh Bağırov başda olmaqla, 24 üzvü barədə məhkəmələr tərəfindən həbs qətimkan tədbiri seçilmişdir.

Xüsusi əməliyyat başa çatdıqdan sonra ayrı-ayrı destruktiv elementlər Nardaran qəsəbəsində icazəsiz toplantı keçirməyə, sakinləri konstitusion quruluşa qarşı çıxmağa, hakimiyyət nümayəndələrinə zor tətbiq olunmasına, kütləvi itaətsizliyə çağırışlar etmiş, yolları bağlamış, barrikadalar qurmuş, silah qismində əşyalar toplamış, lakin həyata keçirilən tədbirlərlə bu cür qanunazidd hərəkətlərin qarşısı alınmışdır.

O da qeyd edilməlidir ki, daxili işlər və prokurorluq orqanları tərəfindən dəqiqləşdirilmiş məlumatlar əsasında qanunsuz olaraq odlu silah, partlayıcı maddələr və qurğular saxlayan şəxslər müəyyən edilərək həmin əşyaların könüllü təhvil verilməsi tələb olunmuş, ancaq qəsəbənin bir qrup nümayəndəsinin silah saxlayan şəxslərə müvafiq müracieti müsbət nəticə verməmişdir.

Cari il noyabrın 30-da isə Gəncə şəhərində "Müsəlman birliyi" hərəkatına dəstək verən 6 nəfər müəyyən edilmiş, yaşadıqları ünvanlara baxış zamanı oradan 1 avtomat, 1 tüfəng, 12 qumbara, çoxlu sayda döyüş sursatı, dini ədəbiyyat və s. əşkar edilib götürülmüşdür.

Bununla yanaşı, Azərbaycanın vətəndaşları olduqları halda, qəsəbənin bir sıra sakinləri hüquqi, dünyəvi, demokratik dövlət quruluşuna və idarəçiliyinə qarşı çıxır, özlərini dövlət orqanlarına münasibətdə tərəf saymağa, hakimiyyət nümayəndələri ilə danışıqlar aparmaq kimi bölücülük xarakterli şərtlər və digər qanunsuz tələblər irəli sürməyə cəhdlər göstərirlər.

Dini radikalizmi, ekstremizmi özlərinin əqidəsinə və həyat tərzinə çevirmiş həmin şəxslər qəsəbədə ölkənin qanunlarını, dövlət atributlarını inkar edir, Azərbaycan dilinin tətbiqi ilə bağlı qanunvericiliyin tələblərini qəsdən pozur, azyaşlı və yeniyetmələr arasında cəhaləti və zorakılığı təbliğ edirlər.

Nardaran qəsəbəsində gərginliyin səxlanılmasına edilən cəhdlər onun sakinlərinin bir qismində, həmçinin ölkənin bütün vətəndaşlarında narazılıq, narahatlıq doğurur və onlar dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə yönələn hüquqazidd əməllərin qarşısının alınmasını, qanunçuluğun, sabitliyin və ictimai qaydanın bərpa edilməsini, dövlət və bələdiyyə orqanlarının normal işinin təmin olunmasını, silahlı cinayətkar qruplaşmalara qarşı qətiyyətli tədbirlərin görülməsini tələb edirlər.

Göstərilənlər nəzərə alınaraq, vətəndaşlarımızın hüquqlarının, azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, ellərdə qanunsuz saxlanılan odlu silahların, partlayıcı maddə və qurğuların yığılması məqsədilə 2015-ci il dekabr ayının 1-də saat 8.00-da qəsəbədə xüsusi əməliyyat keçirilməsinə başlanılmışdır. Müvafiq plana uyğun olaraq, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və nizami polis hissələrinin məhdud sayda xüsusi texnikası, şəxsi heyəti qəsəbəyə daxil olmuş, müəyyən edilmiş yerlərdə postlar qoyulmuş və hazırda xüsusi əməliyyat zonasında Baş Prokurorluğun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin istintaq-əməliyyat qrupu fəaliyyət göstərir.

Nardaran qəsəbəsinin sakinlərindən, onların əmin-amanlığının təmin olunması naminə keçirilən xüsusi əməliyyat zamanı hüquq qaydasına ciddi riayət etmələri, ictimai asayiş, hakimiyyət nümayəndələrinin həyat və sağlamlığı üçün təhlükə törədən və şərait yaradan hərəkətlərə yol verməmələri, göstərişlərə əməl etmələri tələb olunur.

Eyni zamanda bildirilir ki, xüsusi əməliyyatı həyata keçirən qüvvələrə müqavimət göstərən, silahlı və ya silah qismində əşyalarla hücum edən, ictimai qaydanı kobud surətdə pozan hərəkətlərə yol verən şəxslər haqqında qanun çərçivəsində dərhal ən ciddi tədbirlər görüləcəkdir.

Xüsusi əməliyyat Azərbaycan Respublikası Prezidentinin nəzarətindədir və onun gedişi mütəmadi məruzə olunur.

01.12.2015

DÖYÜŞ HAZIRLIĞININ YÜKSƏK SƏVİYYƏDƏ SAXLANILMASI DAİM DİQQƏT MƏRKƏZİNDƏDİR

Qəzetimizin ötən sayında Daxili Qoşunların 12318 saylı hərbi hissəsində aparılan abadlıq-quruculuq işləri, həmçinin yeni qarovul məntəqəsinin şəxsi heyətin istifadəsinə verilməsi barədə məlumat verdik.

Bu sayımızda isə görülən işlərin davamı olaraq hazırlanmış atəş-sınaq məntəqəsi və digər şəhərciklər haqqında materialı təqdim edirik.

Hərbi hissənin ərazisində yerləşən və təxminən 1 ay öncə istifadəyə verilən atəş-sınaq məntəqəsində silah təmizləmə otaqları, sanitar qovşaqlar, nəzəri məşğələlər üçün sinif otaqları, atəş açmaq üçün 9 və kiçik çaplı silahlar üçün 6 nəfərlik hədəf yerləri hazırlanıb. Mütəxəssislər hazırlayan bölüyün sürücülər hazırlayan taqımının hərbi qulluqçuları ilə praktiki məşqlərin keçirilməsi üçün xüsusi zolaqlar çəkilmiş ərazi də istifadəyə verilib.

80 nəfərlik sinif otaqlarında şəxsi heyətlə ictimai-siyasi hazırlıq, taktiki hazırlıq, Daxili Qoşunların taktikası fənləri üzrə dərslər tədris edilir. Atəş məntəqəsində isə gündəlik olaraq hərbi hissənin xüsusi təyinatlı dəstəsinin praktiki məşğələləri keçirilir.

Ərazidə həmçinin tək əsgərin döyüş təlimi zolağı, mühəndis-kimya şəhərcikləri (praktiki partlayış aparmaq üçün yer), su hövzəsi, helikopter meydançası, taktiki təlim üçün eni 100, uzunluğu 2000 metr olan meydança da hazırlanıb.

Qeyd edək ki, atəş-sınaq məntəqəsində giriş-çıxışı məhdudlaşdıran nəzarət-buraxılış məntəqəsi də tikilərək şlaqbaum qoyulub və yol boyu təbliğat lövhələri vurulub.

Lakin görülən işlər bunlarla da məhdudlaşmır. Hərbi hissədə hazırlanmış idman şəhərciyində xüsusi maneələr zolağı, həmçinin qaçış üçün 1000, 3000, 10000 metrlik zolaqlar çəkilib, futbol, voleybol, basketbol oyunları üçün meydançalar tikilib. Müxtəlif texniki avadanlıqlarla təchiz edilmiş səhra mətbaxində isə şəxsi heyətin normal qidalanması üçün demək olar ki, hər cür şərait yaradılıb.

Bütün bunlar onu deməyə əsas verir ki, şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması hər zaman diqqət mərkəzindədir.

leytenant X.Tağıyeva

ŞƏXSİ HEYƏTİN ÖZÜNƏ QARŞI TƏLƏBKARLIĞI XİDMƏTİN YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİLİNƏ ZƏMİN YARADIR

16075 saylı hərbi hissədə verilmiş tapşırıqları keyfiyyətlə və dəqiq yerinə yetirən xidmətlərdən biri də Avtomobil və Zirehli Texnika xidmətidir. Xidmətin hərbi qulluqçuları döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün hər zaman çalışırlar. Daim peşə hazırlıqlarını təkmilləşdirir, vəzifə borclarından irəli gələn tələblərə böyük məsuliyyətlə yanaşırlar. Bu da nəticə etibarı ilə xidmətin yüksək səviyyədə təşkil olunmasını şərtləndirir.

Avtomobil və Zirehli Texnika xidmətinin rəisi kapitan Vüsal Qaribov bizimlə söhbət zamanı bildirdi ki, xidməti-döyüş fəaliyyətlərini "Daxili Qoşunlarda Avtomobil xidmətinin təşkilinə dair Təlimatın" tələblərinə əsasən təşkil edirlər. Görülən işlərin keyfiyyətinin artırılması istiqamətində bütün zəruri tədbirlərin görüldüyünü deyən xidmət rəisi əlavə etdi ki, hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında onların da üzərinə böyük məsuliyyət düşür: "Xidmətin şəxsi heyəti funksional vəzifələrindən irəli gələn tapşırıqları layiqincə yerinə yetirməyə çalışırlar. Fəaliyyətimizin əsas istiqamətləri döyüş hazırlığının qorunub saxlanılması üçün nəqliyyat vasitələrinin daim saz və işlək vəziyyətdə saxlanılması, avtomobillərin texniki cəhətdən istismarının düzgün təşkil edilməsidir". Xidmətdə daim nəzarətdə saxlanılan məsələlərdən biri də avtomobil və zirehli texnikaların istismarı və təmiri zamanı təhlükəsizlik tədbirlərinin təmin edilməsi, eyni zamanda xidmət üzrə aparılan uçot və hesabatların vaxtlı-vaxtında, düzgün aparılması və Daxili Qoşunlarının Baş İdarəsinə təqdim olunmasıdır.

Sənədlərin qəbuluna, dövriyyəsinə, hesabatların hazırlanması - na, ilkin uçot sənədi hesab edilən yol vərəqələrinin, maşın işinin uçotu kartoçkasının və maşın pasportlarının düzgün tərtib olunmasına ciddi diqqət yetirilir. Xidmət rəisi bu və ya digər sənədlərin hazırlanmasında kargüzar çavuş Ülviyyə Mehdiyevanın fəaliyyətini müsbət qiymətləndirdi.

Ümumiyyətlə, şəxsi heyətin özünə qarşı tələbkarlığı xidmətin yüksək səviyyədə təşkilinə zəmin yaradır.

leytenant N.Ağayeva

ASUDƏ VAXTIN SƏMƏRƏLİ TƏŞKİLİ ÜÇÜN HƏRTƏRƏFLİ ŞƏRAİT MÖVCUDDUR

Dövlətimizin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş Daxili Qoşunların şəxsi heyətinin bu gün artıq böyük əksəriyyəti xidməti mənzillərlə təmin olunub. Bura həm ailəli, həm də subay hərbi qulluqçular daxildir.



Subay hərbi qulluqçuların istifadəsində olan modul tipli yataqxanalarda yaşayış şəraiti və xidmətdən sonrakı asudə vaxtlarının səmərəli təşkilini qələmə almaq məqsədilə 99713 saylı hərbi hissədə oldum.

Hərbi hissənin ərazisində inşa edilmiş modul tipli yataqxana hərbi qulluqçuların yüksək döyüş hazırlığının qorunub saxlanılmasını tə - min edir. Yəni, şəxsi heyətin həyə - can siqnalı zamanı qısa bir vaxtda xidmət yerinə cəmləşməsində bö - yük əhəmiyyət kəsb edir.

Hərbi qulluqçuların asudə vax - tının səmərəli təşkili hərbi hissə komandanlığı tərəfindən diqqət yetirilən əsas məsələlərdəndir. Odur ki, modul tipli yataqxanada şəxsi heyətin istirahəti üçün hər - tərəfli şərait yaradılıb. Xidməti otaqlar bütün lazımi mebel avadanlıqları ilə təchiz olunub. Eyni zamanda, yataqxananın inzibati binasında istirahət quşəsi də yaradılıb. Burada idman zalı və yeməkxana mövcuddur. İdman zalında hərbi qulluqçular eyni vaxtda müxtəlif stolüstü oyunlar (tennis, şahmat, dama və s.) oynaya bilirlər. Bir sıra hərbi qulluqçular isə hərbi hissənin kitabxanasından götürdükləri müxtəlif növ kitabları mütalə edirlər. Bura həm xidməti istifadə üçün nəzərdə tutulmuş əmrlər, təlimatlar, əsasnamələr, həm də bədii ədəbiyyatlar daxildir. Müasir Azərbaycan tarixi və Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən nəşrlər ən çox sevilən və oxunan kitablar arasındadır. Yaradılmış şəraitlə bağlı hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının qorunub saxlanılmasını tə - min edir. Yəni, şəxsi heyətin həyə - can siqnalı zamanı qısa bir vaxtda xidmət yerinə cəmləşməsində bö - yük əhəmiyyət kəsb edir.

Hərbi qulluqçuların asudə vax - tının səmərəli təşkili hərbi hissə komandanlığı tərəfindən diqqət yetirilən əsas məsələlərdəndir. Odur ki, modul tipli yataqxanada şəxsi heyətin istirahəti üçün hər - tərəfli şərait yaradılıb. Xidməti otaqlar bütün lazımi mebel avadanlıqları ilə təchiz olunub. Eyni

Şəhidlərimiz

QƏHRƏMAN OĞULLARIMIZIN ŞƏRƏFLİ DÖYÜŞ YOLU GƏNCLƏRİMİZ ÜÇÜN ƏSL NÜMUNƏDİR!

«Hər bir şəhid bizim üçün böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır».

Heydər Əliyev, Azərbaycan xalqının Ümummilli Lideri

XX əsrin sonlarında Azərbaycan xalqı sanki yenidən tarixin amansız sınağına tuş gəldi... Bədnam qonşularımız olan nankor ermənı daşnaklarının torpaqlarımıza təcavüzü nəticəsində ölkəmiz ağır bir dövrə qədəm qoydu...

Vətənin belə ağır günlərində digər bölgələrimiz kimi Balakənin qəhrəman oğulları da silaha sarılaraq, torpaqlarımızın müdafiəsinə yollandılar. Bu müqəddəs amal uğrunda rayon sakinlərindən 151 nəfəri şəhid, 90 nəfəri isə əlil olmuşdur.

Balakənin təkcə qədim kəndlərindən olan Katexin 20 nəfər igid oğlu torpaqlarımızın müdafiəsi uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlmişdir. Onlardan 4 nəfəri (Həmzət Abduləzizov, İbrahim Tinətiyev, Nüsrət Qudavasov və Mübariz Şabanov) məhz Daxili Qoşunların cəsur döyüşçüləri idi.

Bu sayımızda adları qeyd olunan qəhrəmanlardan biri - Daxili Qoşunların sıravi hərbi qulluqçusu şəhid Həmzət Abduləzizovun həyat və döyüş yolu barədə məlumat verəcəyik.

Şəhid Həmzət Abduləziz oğlu Abduləzizov 1974-cü il avqust ayının 9-da Balakən rayonunun Katex kəndində anadan olub.

Həmzət Abduləziz kişinin və Uzlifət ananın boya-başa çatdırdığı altı övladdan (Əliəsab, Umarasab, Nəsifət, Həsən, Balqız və Həmzət) biri və eyni zamanda ailənin sonbeşiyi idi. O, 1980-cı ildə Katex kənd Kombinat orta məktəbinin 1-ci sinfinə gedib. Rus dili bölməsində təhsil alıb. Hələ uşaq yaşlarından şeirə və ədəbiyyata böyük maraq göstərən Həmzət məktəbdə əlaçı olması ilə yanaşı, həm də gözəl şeirlər yazardı.

Təəssüflər olsun ki, Həmzətin qələmə aldığı bir çox şeirlərdən yalnız "Balakən şəhidləri" kitabında dərc edilmiş bir parçası yadigar qalıb:

Doğma kəndim
Mən səndə boy atdım
Mən səndə öyrəndim
hər şeyi,
düzlüyü, igidliyi
Doğma kəndim
qoynunda yetişdi
sevgim də, nifrətim də...



Həmzət Abdulaziz oğlu Abdulazizov

Mənfur erməni daşnakları yenidən baş qaldıraraq torpaqlarımızı işğal etməyə başlayanda Həmzət Abdulazizov "İndi şeir vaxtı deyil..." – deyərək bütün şeirlərini yandırmış və hərbi xidmətə yollanmışdır...

Orta məktəbdə oxuyarkən hərbi hazırlıq fənnindən dərs demiş müəllimi, ehtiyatda olan mayor Ramazan Tələtov Həmzət haqqında fikirlərini bölüşdü:

«... Həmzət olduqca çalışqan, tərbiyəli və vətənpərvər şagird idi. Məktəbdə hər kəsin – həm müəllimlərin, həm də şagirdlərin sevimlisi idi. Bu gün ərazisinin iyirmi faizi düşmən işğalı altında olan ölkəmizdə Həmzət kimi qəhrəman oğullarımızın şərəfli həyat və döyüş yolu gənclərimiz üçün əsl nümunədir».

Balakən Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan H.Abduləzizov Vətənə olan müqəddəs borcunu Daxili Qoşunların "N" saylı hərbi hissəsində "sıravi" hərbi qulluqçu kimi yerinə yetirməyə başlayır. Nümunəvi xidməti, yüksək intizamı və möhkəm iradəsi sayəsində o, tez bir zamanda komandirlərinin və əsgər yoldaşlarının dərin hörmət və etibarını qazanmağa müvəffəq olur.

31.08.1992-ci il. Ağdərə uğrunda gedən döyüş sıravi H.Abdulazizovun son döyüşü oldu. O, bu döyüşlər zamanı qəhrəmancasına vuruşaraq, şəhidlik zirvəsinə ucaldı...

Şəhid döyüşçünün qardaşı, Umarasab Abduləzizov qardaşı ilə qürur duyduğunu deyir:

"Həmzət uşaqlıqdan deyib-gülən, mehriban bir insan idi. Zarafatı çox sevərdi. Qohum-qonşular, kənddə hər kəs onun xətrini çox istəyirdi. Olduqca mərd idi. İdmanın güləş növü ilə məşğul olurdu. Heç nədən qorxub çəkinməzdi...".

U.Abduləzizov həmçinin qardaşının ən yaxın dostu və həmkəndlisi olmuş İbrahim Tinatiyevin də onunla eyni döyüşdə şəhid olduğunu bildirdi:

"... Həmzətlə İbrahim bir məktəbdə, bir sinifdə və bir parta arxasında təhsil alıblar. Hərbi xidmətə də birgə yollanmışdılar. İkisi də Daxili Qoşunların "N" saylı hərbi hissəsində birgə xidmət etmişdi. Ön cəbhədə də bir bölüyün tərkibində olmuşdular. Ağdərə rayonunun yaşayış məntəqələrinin müdafiəsi və azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdilər.

...nə qədər qəribə olsa da, hər ikisi eyni gündə döyüşərkən qəhrəmancasına şəhid oldular. İki dost Balakən Şəhidlər Xiyabanında da yan-yana dəfn olunublar".

Məlumat üçün qeyd edək ki, sıravi H.Abduləzizovun həyat və döyüş yolu barədə məlumatlara həmçinin görkəmli ziyalımız Müşfiq Çobanlının 1995-ci ildə Bakıda nəşr olunmuş "Balakən şəhidləri" adlı kitabında dərc edilmiş "Avtomatçı Həmzət" başlıqlı məqaləsində və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar.

Sıravi H.Abduləzizovun ömür yolu bugünkü gənclərimiz üçün əsl örnəkdir. O, yurdumuza göz dikən neçə-neçə düşmən yaraqlısını məhv etməklə onların mənfur niyyətlərini gözlərində qoymuşdur. Həmzət kimi qəhrəman oğullarımızın arzusunda olduğu qələbə günü heç də uzaqda deyil.

Allah şəhidlərimizə rəhmət eləsin!

kapitan Anar Əhmədov,
Mənəvi-psixoloji hazırlıq
şöbəsində muzey rəhbəri

P.S. Məqalənin hazırlanması üçün müvafiq məlumatların əldə edilməsində göstərdiyi köməkliyə görə 67987 saylı hərbi hissənin hərbi qulluqçusu gizir Ramazan Hüseynova minnət - darlığımızı bildiririk.

METODİKİ DƏRS VƏSAİTİ

DÖYÜŞ ŞƏRAİTİNDƏ HƏRBİ QULLUQÇULARIN DAVRANIŞLARININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

"Döyüş şəraitində hərbi qulluqçuların davranışlarının psixoloji xüsusiyyətləri" adlı dərs vəsaiti DİN Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin tədris şöbəsinin hərbi kafedralarında Ümumqoşun fənlər və atəş hazırlığı kafedrası rəisi polkovnik Saleh Rüstəmov tərəfindən hazırlanıb.

Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov tərəfindən metodiki tövsiyələr verilmiş vəsait Daxili Qoşunların bütün dərəcəli hərbi qulluqçuları ilə tədris prosesində "Hərbi psixologiya" fənni üzrə planlaşdırılan məşğələlərdə istifadə edilməsi və döyüşün müxtəlif növlərində hərbi qulluqçuların psixoloji xüsusiyyətlərinin öyrənilməsi üçün nəzərdə tutulub.

(əvvəli ötən sayımızda)

Göründüyü kimi, silahlı bölmələrin hücuma can atması onların psixoloji durumunun da yaxşılaşması üçün imkanlar yaradır. Belə ki, döyüş texnikasının, silahların və ləvazimatların döyüşə hazırlanması üzə tədbirlər, həmçinin hərbi qulluqçular qarşısında qoyulan çoxsaylı tapşırıqlar, onları müəyyən müddətdə psixotravmatik təəssüratlardan yayındırır.

Qeyd etmək lazımdır ki, döyüş əməliyyatlarının baş verdiyi mühit əsas dörd (4) elementdən ibarətdir. Bunlar- təhlükələr, fiziki gərginliklər, qeyri-müəyyənliklər və təsadüflərdir. Sadalanan şəraitlərdə inamla və uğurla irəliləmək üçün şübhəsiz ki, böyük mənəvi və əqli qüvvə tələb olunur. Etiraf etmək lazımdır ki, döyüş əsnasında insanın ürəyinə dolan bütün yüksək hisslərdən ən davamlı və qüvvətlisi - şöhrət və şərəf qazanma istəyidir. Bir çox hallarda bu sözləri şöhrətpərəstlik və şan-şöhrət sözləri ilə əvəzləməyə çalışsalarda, əslində bu belə deyildir. Döyüşün gedişində hər bir döyüşçünün şərəf və şöhrət əldə etmə istəyi, sonda ümumi məqsədə nail olmaq üçün vacib zəmin yaradır. Döyüş şəraitində döyüşçülərin hansısa fəaliyyətlərin birinci olaraq yerinə yetirəcəkləri təqdirdə təşviq edilməsi (hər hansı bir formada mükafatlandırılması) kimi hərəkətlər, yuxarıda göstərilən hisslərin açıq şəkildə büruzə verilməsini təmin etmiş olur.

Tarixə nəzər saldıqda, deyilənlərə təsdiq edə biləcək nümunələri, böyük sərkərdələr Hannibalın, Makedoniyalı İskəndərin, Yuli Sezarın, Çingizxanın, Teymurlengin, Napoleon Bonapartın və başqalarının hərb salnamələrində, həmçinin I və II dünya müharibələrində və müasir dövrümüzdə baş verən müharibələrdə də görmək olar.

Hərb tarixinin böyük sərkərdələrindən olan Karfagenli Hannibal döyüşlərin birində mühasirəyə aldığı qalanın güclü müqavimətinə rast gəldikdə, qala divarlarına birinci dirmaşan döyüşçüyə qızıl qələng vəd etmişdir. Makedoniyalı İskəndər Orta Asiyaya yürüşü zamanı, döyüşlərin birində sıldırım qayalıq ərazidə mühasirəyə aldığı qarşı tərəfin müqavimətini qıra bilmədiyi halda, qayalıq üzərinə birinci olaraq çıxacaq döyüşçüyə 12 talant qızıl, ikinci və üçüncü olanlara isə müvafiq olaraq digər məbləğdə mükafat vəd etmişdir.

Roma imperatoru Yuli Sezarın "Şə - hərdə ikinci olmaqdansa, əyalətdə birinci olmaq daha yaxşıdır."- sözləri isə onun nə dərəcədə birinci olmaq istəyini açıq şəkildə göstərir.

II Dünya müharibəsi zamanı, 1945-ci ilin mayında, Sovet və müttəfiq qoşunların eyni məqsədlə döyüşməsinə baxmayaraq, Berlinə ilk olaraq hansı tərəfin qoşun birləşmələrinin daxil olma istəyi, həmçinin Sovet qoşunları arasında kimin Reyxstaq binasının üzərinə bayrağı birinci olaraq sancmaq şərəfinə nail olma arzusu yuxarıda deyilənləri bir daha təsdiq edir. Döyüşdə birinci olmaq istəyini ideoloji baxımdan düzgün formalaşdırmaq uğur əldə etməyin ən vacib şərtlərindəndir. Burada əsas diqqət döyüşçüyə ən yüksək insani hisslərin (kişilik, qeyrət, fədakarlıq, vətənə sədaqət və s.) aşılanmasına, öz vətəni uğrunda canından keçməyə hazır olma, düşmənə heç bir halda təslim olmama və komandirlərinə sədaqətli olması kimi keyfiyyətlərin kompleks şəkildə tərbiyə olunmasına yönəldilməlidir.

Hələ orta əsrlərdə N.Makiavelli bu məsələ ilə bağlı yazırdı: "Mənəviyyata xüsusi diqqət yetirmək lazımdır: əsgər vicdanlı və dürüst olmalıdır, əgər bu keyfiyyətlər yoxdursa, onda həmin əsgər nizamsızlıq alətinə çevrilir və əxləqsız olmağa başlayır. Çünki heç kim inanmaz ki, yarıtmaz tərbiyə insanda heç olmasa zərrə qədər də olsa, tərifəlayiq əsgəri cəsarət yarada bilsin".

Hücum xarakterli döyüş əməliyyatları, döyüşçünün davranış aktivliyinə öz təsirini göstərir.

Hücum fəaliyyətləri enerjisi və dinamikası döyüşçüdə kütləvi qəhrəmanlıq hissini və yaradıcı döyüş təşəbbüskarlığının inkişafına imkan yaradır. Buna psixoloji yoluxma və yamsılama prosesləri də əhəmiyyətli dərəcədə səbəb olur. Ayrı-ayrı hərbi qulluqçular, cəsarətsiz olduqları halda belə ümumi döyüş nəticələri, uğurlar və kütləvi döyüş həyacanı fonunda, fəallıq və müstəqillik göstərə bilirlər. Hücum zamanı hərbi qulluqçular arasında sosial-psixoloji əlaqələr daha da güclənir və fəallaşır, onların intizamı və "idarəolunmaları" fərqli şəkildə artır. Hərbi qulluqçuların bir sırada fəaliyyətləri, psixoloji vəziyyətlərin müxtəlifliyinə baxmayaraq, daha çox fayda verə bilər. Belə bir fikir də var ki, cəsur, lakin pərakəndə insanlar, qorxaq, lakin sıx sırada, bütöv şəkildə olan insanlardan dəfələrlə zəifdirlər. Belə ki, vahid sırada hərəkət insanın şüurundakı təhlükəsizi boğur və ya zəifləndir, halbuki, nizamsızlıq və qarışıqlıq, igidliyi və şücaəti heçə endirir. Hərbi qulluqçuların hücum döyüşünə üstünlük verməsi, əlavə olaraq onunla izah olunur ki, burada gözlənilməzlik və qəfillik kimi psixoloji effektdən istifadə etmək olar. Hesablamalara görə, əməliyyat və döyüşlərdə qələbələrin 65%-nin səbəbi məhz qəfillik effektidir. Hərbi mütəxəssislərin təhqiqatları göstərir ki, hücum edən qoşunların itkiləri qarşı tərəfin itkilərindən 2 dəfə çox olduqda hücum fəaliyyətləri dayandırılır.

Qeyd etməliyik ki, hücum fəaliyyətləri, psixoloji cəhətdən, bir neçə çətinliklərlə xarakterizə olunur.

Onlardan:

Birincisi - ərazinin naməlum olması amilidir. Başa düşdüyümüz mənada, bu daha çox işğalçı ordusuna aid olan bir məsələdir. Lakin öz torpaqlarını işğaldan azad edən qüvvələr üçün ərazi bu mənada məlum olsa da, işğal müddətində düşmən tərəfindən bu torpaqlarda hücum edənlər üçün hücumun dərinliklərində hansı atəş müqavimətinin, mühəndis maneələri sisteminin və müxtəlif növ "tələlərin" quracağını təxmin etmək çox çətin olur.

İkincisi - hər bir döyüşçü hücuma getdiyi zaman müəyyən risklərə və təhlükəyə məruz qalacağını göz altına almalı olur. Bu isə praktika göstərdiyi kimi çox çətindir. Rusiyalı, Amerikalı, Almaniyalı və Fransız mütəxəssislərin bu sahədə təhqiqatları göstərir ki, döyüşdə şəxsi heyətin yalnız 25-30%-i tələ olunan fəallığı (səmərəli atəş aparır, yerdəyişmə edir və s) göstərir, digərləri isə təhlükəsiz yerdə gizlənir, psixi və ya fiziki xəsarətalması imitasiya edir, yaralıları arxa cəbhəyə "müşayiət" edir, döyüş texnikasının döyüşdən çıxarılmasını "gösterir" və s.

Üçüncüsü – elmi surətdə müəyyən edilmişdir ki, praktiki olaraq hər bir hərbi qulluqçu bilavasitə hücumdan önca yüksək əsəbilik, narahatçılıq, həyacan və təşviş hissləri keçirir. Bu dövrdə insanların əhvali qeyri-sabit olur və xoşagəlməz-üzücü əhvaldan, gücləndirilmiş-şən əhvaladək dəyişə bilir.

Zahirən bu hallar yersiz vurnuxma, lazımsız işlərin görülməsi, diqqətin zəifləməsi, toparlanmağı bacarmama, nitqin şuxluğu və gursəsli olması, əl-qol hərəkətlərinin (jestikulyasiya) artması və tez-tez siqaret çəkilməsi kimi əlamətlərdə özünü biruze verir. Bu zaman hərbi qulluqçuların nəfəs alması (18 dəfə nəfəs alıb verməsi norma sayıldığı halda, bu göstərici 30-a dək artır), nəbzi (dəqiqədə 125-dək vurması) surətlənir, bədənin hərarəti isə hətta 39 dərəcəyədək qalxır. Bəzən hərbi qulluqçuların soyuq havada belə üst geyimlərini çıxartmaq istəyi müşahidə olunur. Hücuma getmə qərarı verildiyi anda stress vəziyyəti özünün pik nöqtəsinə çatır. Bu zaman döyüşçü əlavə motivasiyaya (döyüş çağırışı, öz yoldaşlarının qəhrəmanlıq nümunələri, psixoloji cəhətdən özünütənzimləmə və ani iradi səfərbərlik fəndlərini yerinə yetirmə bacarığı) ehtiyac duyur. Döyüşə gedən hərbi qulluqçu xüsusi bir əsabi vəziyyətdə olur. Buna bir çox hallarda "şok" vəziyyəti də deyilir. Bu zaman döyüşçünün döyüş meydanında iştirakı praktiki olaraq idarəolunmaz olur. Onun döyüş meydanında oriyentasiyası qeyri-adekvat ola bilər, bu isə fəaliyyətlər zamanı yanlış hərəkətlərin çoxalmasına səbəb olur.

III Stress.

Hərbi qulluqçunun döyüşdə yaşadığı emosional hallı stress kimi dəyərləndirmək olar. Stress - insanın ona zərəri olan hər bir şeyə biokimyəvi, fizioloji, psixoloji və davranış reaksiyalarının kompleksidir. Stress nəzəriyyəsinin müəllifi kanadalı alim Q.Selyenin sözlərinə görə stress - orqanizmin ona qarşı irəli sürülmüş istənilən tələblərə qeyri-spesifik cavabıdır, hansı ki, onu bu hala uyğunlaşdırmağa və çətinliyin öhdəsindən gəlməyə kömək edir.

Subyektiv olaraq stress-qorxu, həyacan, tələş, hiddət, təəsirkar olma (küsmə), qüssə, eyforiya, ümidsizlik, fövqəladə yorğunluq və s. kimi dərk edilir. Stressin bir neçə dərəcəsi qeyd olunur. Bunlardan biokimyəvi, fizioloji (əğciyərdə - oksigen həcminin artması, gözlərdə - itilik və uzaqgörmənin artması, arteriyaların daralması – qan təzyiqi, əzələlərin güclənməsi və s.), psixofizioloji, psixoloji (dərketmə qabiliyyətinin daralması, fikirlərin təhlükəyə cəmlənməsi, həyacan hissi və motivasiya) və sosial-psixoloji dərəcələri göstərmək olar.

Hərbi qulluqçunun döyüş zamanı neqativ hissləri yaşamasının pik həddi müxtəlif vaxtlarda fərqli şəkildə dəyişir. Bir sıra tədqiqatlarda müəyyən edilmişdir ki, təxminən 30% hərbi qulluqçu döyüşdən əvvəl, 35% - döyüşün gedişində və 15% isə döyüşdən sonra qorxu hissedir. Hərbi qulluqçuların döyüş şəraitində stress vəziyyətində mənfi duyğuları arasında qorxu əhəmiyyətli yer tutur. Qorxu-insanın bioloji və sosial mövcudluğuna təhlükə vəziyyətində yaranan real və ya xəyali təhlükə mənbəyinə yönəlmiş emosiyadan ibarət olur. Qorxunun bir neçə formasını fərqləndirirlər: vahimə, tələş, nigarançlıq, affektiv qorxu, fərd